# Bərpaolunan enerji və COP29 uğurları

**Azərbaycanın enerji siyasətində "yaşıl enerji"yə keçid prioritet istiqamətlərdən biri kimi müəyyən olunub. Bərpaolunan və ekoloji cəhətdən təmiz enerji mənbələrindən əldə edilən enerjinin ümumi enerji balansındakı payının mərhələli şəkildə artırılması bu sahədə həyata keçirilən islahatların başlıca hədəflərindən sayılır.**




Eyni zamanda, ölkəmizdə bu sahənin inkişafını sürətləndirmək üçün zəruri hüquqi-institusional mexanizmlər formalaşdırılır və müasir tənzimləyici tədbirlər həyata keçirilir. Bərpaolunan enerji sənayesinin təşviqi və səmərəli idarə olunması məqsədilə dövlət səviyyəsində ardıcıl addımlar atılır. Bu istiqamətdə əhəmiyyətli qərarlardan biri kimi, Prezident İlham Əliyevin 22 sentyabr 2020-ci il tarixli Fərmanına əsasən, Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin yaradılması xüsusi vurğulanmalıdır.

**(davamı 9-cu səhifədə)**





# Bərpaolunan enerji və COP29 uğurları






**(əvvəli 1-ci səhifədə)**

Agentliyin fəaliyyətinin əsas məqsədi ölkədə alternativ və bərpaolunan enerji mənbələrindən səmərəli istifadənin təşkili, tənzimlənməsi və bu sahənin investisiya baxımından daha cəlbedici hala gətirilməsidir. Hazırda Azərbaycan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "yaşıl enerji zonası" konsepsiyasını həyata keçirir. Günəş, külək və su enerjisi potensialından istifadə etməklə həm ölkənin enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, həm də karbon emissiyalarının azaldılması məqsəd olaraq qarşıya qoyulub. Respublikada 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payının 30 faizə çatdırılması hədəf kimi müəyyənləşdirilib. Ölkəmizin bərpaolunan enerji potensialı - quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir.

Azərbaycan qlobal iqlim gündəminə töhfə verən, ekologiyanın mühafizəsinə həssas yanaşan bir ölkədir. Ölkədə elektrik enerjisi istehsalında nə kömürdən, nə də mazutdan istifadə edilir. Enerji istehsalı əsasən su ehtiyatları və təbii qaz üzərində qurulub. Son illərdə isə ölkəmizdə Günəş enerjisindən istifadə prosesinə də başlanılıb. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən inşa edilən Qaradağ Günəş Elektrik Stansiyası 230 MVt gücündədir, Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır. Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda, atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən stansiyada 570 min günəş paneli quraşdırılıb. Onun şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib.

III Şuşa Qlobal Media Forumunda "yaşıl" gündəliyə toxunan Prezident İlham Əliyev bildirib ki, 2030-cu ilə qədər imzalanmış investisiya müqavilələri əsasında Azərbaycan ən azı 6 qiqavatlıq yaşıl enerjini, o cümlədən Günəş, külək və su elektrik enerjisini istehsal edəcək. Həmçinin əlavə edib ki, su elektrik enerjisi Qarabağ və Şərqi Zəngəzurda əsas yer tutur. Ümumi 280 meqavat gücündə 30 kiçik su elektrik stansiyası artıq istismara verilib.

Azərbaycanın "yaşıl enerji" siyasətindən danışılırsa burada ən vacib məqam COP29 kimi mötəbər tədbirin ötən il ölkəmizdə keçirilməsidir. Dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən biri sayılan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) ölkəmizdə keçirilməsi barədə qərarın yekdilliklə qəbul olunması təsadüfi deyil. Bu, Azərbaycanın ətraf mühitin qorunmasına və iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılmasına xüsusi önəm verdiyini bir daha sübut edir. III Şuşa Qlobal Media Forumunda bu məsələ diqqətdən kənarda qalmadı. Dövlət başçısı COP29-un uğurlarından bəhs etdi: "COP29-da mühüm nailiyyətlərdən biri ondan ibarətdir ki, biz elə konstruktiv mühit yaratdıq və şəxsi töhfə verdik ki, karbon bazarlarının fəaliyyəti ilə bağlı 6-cı maddə üzərində razılıq əldə olunsun. Bu məsələ ən azı son 10 il ərzində müzakirədə qalmışdır. Beləliklə, o, COP29-un ən mühüm və tutarlı nəticəsinə çevrildi".

Xatırladaq ki, 2024-cü il 11-22 noyabr tarixlərində uğurla keçirilən COP29 konfransı Azərbaycanın bu günə qədər təşkil etdiyi ən iri miqyaslı beynəlxalq tədbir olub. Konfransda 200-ə yaxın ölkədən 77 min nəfər iştirak edib ki, onların arasında 70 dövlət və hökumət başçısı da yer alıb. Bakı COP-u tarixi qərarları və bir sıra vacib məsələlərin həlli ilə yadda qalıb və Azərbaycan bu tədbirlə qlobal iqlim gündəliyinə öz mühüm töhfəsini verə bilib. Azərbaycan COP29 çərçivəsində Qlobal Şimal və Qlobal Cənub arasında dialoq və əməkdaşlıq üçün mühüm körpü rolunu oynadı. Ölkəmiz inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında qarşılıqlı anlaşmanın gücləndirilməsinə, iqlim məsələlərində ortaq mövqenin formalaşdırılmasına və maliyyə öhdəlikləri ilə bağlı konsensusun əldə edilməsinə əhəmiyyətli töhfə verib. COP29 çərçivəsində ümumilikdə 52 qərar qəbul olunub. Ən böyük nailiyyətlərdən biri isə inkişaf etməkdə olan ölkələrin əsas gözləntisi olan "Yeni Kollektiv Kəmiyyət Hədəfi" üzrə konsensusun əldə edilməsi olub. Bu qərara əsasən, 2035-ci ilə qədər bütün mənbələrdən - həm dövlət, həm də özəl sektor vasitəsilə - inkişaf etməkdə olan ölkələrə yönəldilən illik iqlim maliyyəsinin 1,3 trilyon ABŞ dollarına çatdırılması nəzərdə tutulur. Bundan əlavə, inkişaf etmiş ölkələr hər il bu ölkələrə iqlim fəaliyyəti üçün ən azı 300 milyard ABŞ dolları vəsait ayırmağı öhdələrinə götürüblər. Bu göstərici 2009-cu ildə müəyyən edilmiş illik 100 milyard dollarlıq iqlim maliyyəsi hədəfindən üç dəfə çoxdur. COP29-un digər uğuru Paris Sazişinin beynəlxalq karbon bazarlarına dair 6-cı maddəsinin tam işlək vəziyyətə gətirilməsidir.

**Musa BAĞIRLI,**
**"Respublika".**